# BUDDİZM

Satischandra Çatterci, Dhirendra Mohan Datta
“Hind fəlsəfəsinə giriş” və Clive Errickerin “Buddizm”
adlı kitablarından istifadə olunmuşdur

Tərcüməçi:
Çinarə Məhəmməd

qanun nəşriyyatı

Dünya dinlərindən biri olan Buddizmə müasir dövrdə bir çox ölkələrdə, xüsusilə inkişaf etmiş ölkələrdə maraq dayanmadan artır. Bu marağın nəticəsidir ki, hazırda bu dinin ardıcıllarının sayı 1 milyardı keçmişdir. Sizə təqdim ediləcək bu kitabda Satischandra Çatterci, Dhirendra Mohan Datta "Hind fəlsəfəsinə giriş" və Clive Errickerin "Buddizm" adlı kitablarından istifadə olunmuşdur.

Bu kitabda siz Buddizmin yaradıcısı, real tarixi şəxsiyyət olan Siddharta, onun təlimi, eləcə də, Buddizmdə olan çoxsaylı məktəb və cərəyanlar barədə oxuyacaq, Buddizmin tarixi, həmçinin müasir həyatda mövqeyi və rolu haqqında məlumatlar toplayacaqsınız.

**BUDDİZM**
Bakı, Qanun Nəşriyyatı, 2023, 96 səh.

Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 27.09.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Çinarə Məhəmməd |
| Redaktor: | Kifayət Haqverdiyeva |
| Korrektorlar: | Aygün Həsənova, Bəsti Məmmədova |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-822-0

© Qanun Nəşriyyatı, 2023

# MÜNDƏRİCAT


I. BUDDANIN HƏYATI. BUDDA ADININ MƏNASI.......7

II. BUDDANIN TƏLİMİ – DÖRD XEYİRXAH HƏQİQƏT.......21

Birinci nəcib həqiqət – əzablar var.......21

İkinci nəcib həqiqət – əzabların səbəbi var.......22

Üçüncü nəcib həqiqət – əzablara son qoyulması haqqında ..26

Dördüncü nəcib həqiqət – azadolma yolu haqqında.......31

III. BUDDANIN ETİK TƏLİMİ.......38

Əxlaqi davranış.......45

Buddist etikasının praktik xarakteri.......49

IV. BUDDİST FƏLSƏFİ MƏKTƏBLƏRİ.......61

Madhyamiklərin şunya-vada məktəbi.......65

Subyektiv idealizm məktəbi – Yoqaçarlar.......70

Sautraniklər məktəbi (reprezentationizm).......74

Vaybhaşiklər məktəbi.......77

V. BUDDİZMİN DİNİ MƏKTƏBLƏRİ – HİNAYANA VƏ MAHAYANA.......79

VI. BUDDİZM BU GÜN: QƏRB VƏ ŞƏRQ.......86

NƏTİCƏ.......93

ƏDƏBİYYAT SİYAHISI.......95

# I. BUDDANIN HƏYATI. BUDDA ADININ MƏNASI

Buddizmin əsasını qoyan Siddhartha və ya Qautama Buddanın (Asiyanın işığı) həyatı çox yaxşı öyrənilib. O, e.ə. VI əsrdə Kapilavastuda (Biharın şimalında, Himalay yaxınlığında) kral ailəsində doğulub. Artıq gənc yaşlarında zadəgan həyatından imtina edib. Buddanın gördüyü xəstəlik, qocalıq və ölüm ona dünyanın əzablarla dolu olduğunu göstərdi. Sərgərdan rahib kimi keçirdiyi illər ona aydınlıq yolunu tapmağa kömək etdi. Tərki-dünya olandan sonra Budda yorulmadan əzabların mənbəyini axtarır və onlardan qurtulmaq haqqında düşünürdü. O bu sualların cavabını dövrünün bir çox məşhur fəlsəfi məktəblərində axtarır, özünü dözülməz asketik sınaqlara çəkir, lakin axtardığını tapa bilmirdi. Bütün bunları nəzərə alan Budda yalnız öz gücünə arxayın olmağı qərara alır. Dəmir iradə ilə o öz əqlini fikirlərdən və ehtiraslardan təmizləyir və dünya əzablarının mənbəyi haqqında düşünməyə başlayır. Nəhayət, onun cəhdləri uğurla nəticələnir. Siddhartha Budda (aydınlanmış) olur. Sonralar onun fikirləri Buddizm fəlsəfəsi və dininin

əsasını qoyur ki, bu din zamanın axını ilə Seylon, Birma, Siam, Tibet, Çin, Yaponiya və Koreyaya yayılır.

Qədim dövrün digər mütəfəkkirləri kimi, Buddanın da təlimləri şifahi nəql edilib və nəsildən-nəslə ötürülüb. Bizim Budda haqqında bildiklərimizin mənbəyi "Tripitaka" yəni, "Üç zənbil" əsəridir. Həmin mətnlərin digər adı "Pali qanunları"dır. O, e.ə III əsrdə Seylonda tərtib olunub. Bu qanun üç hissədən ibarətdir. "Vinaya-pitaka" Budda icması və onun qaydalarından bəhs edir. "Suttapitaka"da Buddizmin əsas ehkamları şərh olunur. "Abhidhamma-pitaka" isə Buddizm fəlsəfəsinə aid problemləri üzə çıxarıb, həll edən hissədir. Buradakı bütün fikirlər qədim Buddist fəlsəfəsinin tarixi abidəsidir və onlar Pali dilində yazılıb.

Zamanın axını nəticəsində Buddanın ardıcıllarının sayı o qədər artacaq ki, son nəticədə bu müxtəlif məktəblərin yaranmasına səbəb olacaqdı. Buddizmin ən məşhur dini məktəbləri – Hinayana və Mahayanadır. Hinayana məktəbi cənubda yaranıb və Selyon, Birma və Siam kimi ərazilərdə yayılıb. Bu məktəbin geniş sayda ədəbiyyatı Pali dilində yazılıb. Məktəb ortodoksallığa daha çox sadiq qalaraq, Buddanın təliminə etibarlılıq nümayiş etdirib. Mahayana isə əsas etibarilə şimalda – Tibet, Çin və Yaponiyada yayılıb. Bu məktəbin əsərləri Sanskritdə yazılıb və bunun nəticəsində həmin dildə Buddizmin çoxsaylı ədəbiyyatı meydana gəlib. Bu əsərlərin çox hissəsi isə Tibet və Çin dilinə tərcümə olu-

nub. Sonralar həmin tərcümələrin sayəsində Hindistanda itirilmiş Sanskrit mətnlərinin bir çoxu bərpa olunub.

Beləliklə, Buddizmin bir çox ölkələrdə yayılmasının nəticəsində bu din ona etiqad edən ölkənin milli cizgilərini alıb, başqa etiqadların təsirilə isə müəyyən qədər dəyişib. Nəticədə yaranmış dini məktəblərin sayı və onların ümumi fəlsəfi təlimlərinin ölçüsü o qədər artıb ki, özündə linqvistikanı və fəlsəfəni mükəmməl səviyyədə birləşdirən insanın həyatı bütün bu Buddist yaradıcılığını öyrənməyə kifayət etməz deyə bilərik. Ona görə də bizim Buddizmi təsvirimiz olduqca qısa olsa da, bu, oxucuda geniş təsəvvür yaranmasına səbəb olacaq. Əvvəlcə biz Buddanın həyatı və təlimi, daha sonra isə bu sistemin müxtəlif məktəbləri ilə tanış olacayıq.

Budda iki min beş yüz il əvvəl yaşamış Siddhartha Qautamaya onun ardıcılları tərəfindən verilmiş ad idi. Sual yarana bilər ki, bizə bu obrazın və bütünlüklə Buddanın həyatının nə aidiyyəti var? Müasir dövrün fərqləndirici xüsusiyyətinə çevrilmiş inkişaf arxasınca getmək cəhdi biliklərimizin də daimi genişlənməsini şərtləndirir. Amma bundan əvvəl biz ayrılıqda hər birimizə aid olan əzab probleminə diqqət yetirməliyik. Belə ki, bu faktor bəşər tarixi boyu onun mövcudluğunu müşayiət edib (düşünürük ki, bu əzab halının məhz XX əsrdə özünün ən dəhşətli miqyasına çatdığını demək mübaliğə olmaz). Bunun üzərində düşünmək kifayət edir ki, insanlıq tərəfindən toplanan biliyin bir

sıra problemləri həll etmək gücünə malik olmadığını anlaya biləsən. Ən qəliz texnologiyalar və yeni elmi kəşflər bizə insan təbiətinə xas olan və əzabları törədən münaqişələrin mahiyyətinə varmağa izn vermir. Texniki sahədə inkişaf etdirilmiş ən effektli kommunikasiyalar insan varlıqları arasında ünsiyyətin qurulmasına az yardımçı ola bilir. Beləliklə, tamamilə aydındır ki, həllinə nə qədər zaman və vəsait xərcləməyimizə baxmayaraq, biz bəzi problemlərdən heç vaxt qurtula bilməyəcəyik. Bu cür problemlər əqldən daha çox qəlblə dərk edilə bilər. Onları sırf məntiqi təfəkkürə əsaslanaraq, insan üçün daha rahat həyat şəraiti yaradaraq və ya tibb sahəsində əldə olunan ən son yeniliklər hesabına belə həll etmək olmaz. Məhz bu zaman biz anlamağa başlayırıq ki, nə müasir elm, nə tibb bütün dərdlərə məlhəm ola bilər və bundan sonra biz həll olmayan problemlərə cavab axtarışında əsrlərin sınağından keçən qədim müdrikliyin necə böyük rol oynadığını dərk etməyə başlayırıq. Ancaq bu yanaşma bizə nə üçün Budda obrazının onunla yaşayan və onun ardıcılı olan insanlar arasında, eləcə də müasir dövrdə yaşayan insanlar arasında bu qədər marağa səbəb olduğunu anlamağa imkan verir.

Siddhartha nəcib ailənin üzvü idi. O, Hindistanın şimal-şərqinin (hazırkı Nepal) rəhbərinin oğlu idi. Doğulandan onu hakim olmağa və atasının imtiyazlarını almağa hazırlayırdılar. Ancaq aldığı təhsil, malik olduğu sosial status səbəbindən Siddhartha həm də

müstəqil olaraq öz gələcəyini seçmək imkanına sahib idi. Mənbələrdə olan məlumatlara əsasən, onun atası da belə bir imkanın mümkünlüyündən xəbərdar idi. Tarix deyir ki, kraliça Mahamaya, şah Şuddhadamanın həyat yoldaşı və Siddharthanın anası gördüyü yuxu səbəbindən narahatlıq keçirir. Bu yuxunun yozulmasına əsasən onun oğlu ya hakim, ya da sahdu (yer həyatından imtina edən müqəddəs) olacaqdı. Siddhartha dünyaya gələndə sonra atası əlindən gələni edir ki, övladı hakim olmağı seçsin və oğluna şahlara layiq həyat bəxş edirdi. Uşaq gözəl əşyalar arasında yaşayır və saraydan kənara çıxmırdı. Ailəsi onun gözəl şahzadə Yaşadhara ilə evlənməsinə şərait yaradır və bir müddət sonra onların oğlu dünyaya gəlir. Siddharthanın bütün arzuları həmişə gerçəkləşdirilirdi. Həmçinin həyat yoldaşı və valideyn obrazı gənc şahzadəni həm psixoloji, həm də sosial baxımdan taxt-taca sahib olmağa hazırlayırdı.

Ancaq şahın ümidləri Buddist ənənəsinin rəvayət etdiyi dörd əlamət nəticəsində puç olacaqdı. Şahzadəyə saraydakı tənha həyat darıxdırıcı gəlir və o, sarayın sərhədlərindən kənara çıxıb, orada olan dünyanı öyrənmək istəyirdi. Bir gün Siddhartha öz sürücüsünə onu saraydan kənara aparmağı əmr edir. Nəticədə, Siddharthanın aldığı təəssüratlar onu tamamilə dəyişir. Sarayın sərhədlərini birinci dəfə keçəndə o, qoca insan görür və sürücüsündən bu insanın niyə belə əyilmiş və arıq olduğunu soruşur. Siddhartha sürücüsündən eşitdiyi

sözlərdən heyrətlənir: bu bütün insan varlıqlarının, eləcə də onun taleyidir... Bu, həyatın təbii və qaçılmaz sonudur. Onda Siddhartha özünü saxlaya bilməyib qışqırır: "O zaman gəncliyin mənası və xeyri nədir? Mənası nədir canlı və güclü olmağın, əgər hər şey bax belə bitirsə?"

Siddhartha ikinci dəfə sarayın sərhədlərindən kənara çıxanda növbəti əlamətin şahidi olur. Bu dəfə o, xəstə insanla qarşılaşır. Siddharthanı heyrətləndirən o idi ki, xəstəliklər ən möhkəm və sağlam insanlarda da olur və ən qorxulusu da odur ki, heç kim bu xəstəliklərin qarşısını almaq iqtidarında olmur.

Üçüncü dəfə Siddhartha dəfn mərasimini və yandırılmağa aparılan cənazəni görür. Bu, Hindistanda adi bir (indi də davam edir) mənzərədir. Cənazə heç nə ilə örtülmür və ya qəbirə qoyulmur, onu açıq aparır və ictimai yerlərdə, bir çox hallarda çayların kənarında yandırırlar. Sürücünün bunun gündəlik hal olması barədə dedikləri Siddharthanı tamamilə heyrətə gətirir.

Ona ən çox təsir edən o idi ki, insanlar öz həyatlarını idarə edib, onu yönəldə, öz talelərinə təsir edə bilmirlər. Əlbəttə ki, heç kim qocalmaq istəmir. Amma o da nəzərə alınmalıdır ki, bunun qarşısını almaq üçün heç nə etmək mümkün deyil. Heç kim xəstələnmək istəmir, amma insanlar heç cür bundan sığortalanmayıblar. Əgər ölüm qaçılmazdırsa, onda həyatın heç bir mənası yoxdur. Bəs onda bütün bunlar nə üçündür? Bu danışıqları eşitdikcə